# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 7/6

Bakı şəhəri 06 mart 2019-cu il

AMEA-nın həqiqi üzvü Asəf Nadirovun
90 illik yubileyi haqqında

2019-cu il martın 13-də görkəmli iqtisadçı alim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Asəf Nadirovun anadan olmasının 90 ili tamam olur.

Akademik Asəf Nadirov 1951-ci ildə Azərbaycan Dövlət Universitetinin geoloji coğrafiya fakültəsini bitirmiş, 1956-cı ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1980-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir.

1958-1992-ci illərdə Azərbaycan EA İqtisadiyyat İnstitutunda şöbə müdiri, 1964-1981-ci illərdə həmin institutda elmi işlər üzrə direktor müavini, 1981-1998-ci illərdə Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü olmuşdur.

Onun elmi yaradıcılığının əsas istiqaməti sənayenin inkişafı, onun quruluşunun təkmilləşdirilməsi və səmərəli yerləşdirilməsi problemləri təşkil edir. O, ipəkçiliyin və ipək sənayesinin səmərəli inkişafı üçün respublikada geniş təbii imkanların, əhalinin böyük istehsal təcrübəsinin və tarixi ənənələrinin mövcud olduğunu əsaslandırmışdır.

Akademik Asəf Nadirovun 800-dən çox elmi əsəri, kitab, monoqrafiya və məqalələri çap olunmuşdur. O, “Sosialist istehsalının yerləşdirilməsi” (Bakı, 1965), “Azərbaycan şəhərlərinin iqtisadi inkişaf məsələləri” (Bakı,1966), “Azərbaycanda sənayenin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri” (Bakı, 1976), “Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri” (Bakı, 2001), “Azərbaycan iqtisadiyyatı” (Bakı, 2003) və b. kitabların müəllifidir.

Akademik Asəf Nadirov Fransa, Hindistan, Türkiyə, İran, Almaniya, Yunanıstan, Macarıstan, Belçika və s. ölkələrdə keçirilən beynəlxalq simpozium və elmi konfranslarda Azərbaycan iqtisad elmini layiqincə təmsil etmişdir.

Akademik Asəf Nadirovun yüksəkixtisaslı iqtisadçı alimlərin yetişdirilməsində xüsusi

xidmətləri olmuşdur. Onun elmi rəhbərliyi ilə 50 nəfər iqtisad üzrə fəlsəfə doktoru, 6 nəfər elmlər doktoru müdafiə etmişdir.

Asəf Nadirovun əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Şərəf" və "Şöhrət" ordeninə, bir çox medallara, fəxri fərmanlara layiq görülmüşdür.

Akademik Asəf Abbasqulu oğlu Nadirovun Azərbaycan iqtisad elminin inkişafındakı xidmətlərini nəzərə alaraq və anadan olmasının 90 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın İqtisadiyyat İnstitutuna (iqtisad elmləri doktoru Nazim İmanov) tapşırılsın ki, AMEA-nın həqiqi üzvü Asəf Nadirovun 90 illik yubileyi ilə əlaqədar elmi konfrans keçirilsin.
2. AMEA-nın Rəyasət Heyəti aparatının Mətbuat və informasiya idarəsinə (Zülfüqar Fərzəliyev) tapşırılsın ki, kütləvi informasiya vasitələrində alimin həyat və yaradıcılığına həsr edilmiş məqalələr dərc edilsin.
3. Akademik Asəf Nadirovun 90 illik yubileyi ilə əlaqədar aidiyyəti üzrə dövlət qurumları qarşısında vəsatət qaldırılsın.
4. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ APARATI PROTOKOL ŞÖBƏSİ